*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 365-376*

https://doi.org/10.62837/2025.6.365

**RZAYEVA NƏRMİN KƏRƏM QIZI**
**AMEA-nın Nizami Gəncəvi adına**
**Ədəbiyyat İnstitutunun doktorantı**
**(rzayeva.nk@gmail.com)**

# KLASSİK ƏDƏBİ İRSİN TƏDQİQİ PROBLEMLƏRİ VƏ AKTUAL ELMİ YANAŞMALAR

**Xülasə**

Məqalədə klassik ədəbi irsin tədqiqi tarixinə nəzər salınır. Klassik irsimizin öyrənilməsi tarixi də ədəbiyyatımızın tarixi qədər qədimdir. Belə ki, ədəbi tənqidi fikir öz başlanğıcını şərhlərdən, təzkirələrdən və daha sonra isə bədii söz ustalarının əsərlərindən götürmüşdür. 19-cu əsrdən etibarən M.F.Axundzadənin ədəbiyyatşünaslıq sahəsindəki fəaliyyəti, həmçinin ədəbi-məclislərin bədii fikrin inkişafında oynadığı roldan bəhs olunur. 20-ci əsrdən etibarən bu sahədə sistemli araşdırmalar daha da artmış və ədəbiyyat tarixi bir elm kimi formalaşmışdır. F.B.Köçərli, S.Mümtaz, Y.V.Çəmənzəminli, Ə.Abid, H.Araslı, Ə.Səfərli və digər görkəmli tədqiqatçıların bu sahədə göstərdiyi xidmətlərdən bəhs olunmuşdur.

**Açar sözlər:** klassik, irs, tədqiqat, ədəbiyyatşünaslıq, anadilli.

## ПРОБЛЕМЫ ИССЛЕДОВАНИЯ КЛАССИЧЕСКОГО ЛИТЕРАТУРНОГО НАСЛЕДИЯ И АКТУАЛЬНЫЕ НАУЧНЫЕ ПОДХОДЫ

**НЭРМИН РЗАЕВА**

**РЕЗЮМЕ**

В статье рассматривается история исследования классического литературного наследия. История изучения нашего классического наследия столь же древняя, как и история самой литературы. Литературно-критическая мысль берет своё начало с комментариев, тёзкире (биографических сборников) и позже — с произведений мастеров художественного слова. С XIX века начинается обсуждение деятельности М.Ф. Ахундова в области литературоведения, а также роли литературных кружков в развитии художественной мысли. С XX века системные исследования в этой области значительно усиливаются, и история литературы оформляется как наука. В статье упоминаются заслуги таких выдающихся исследователей, как Ф.Б. Кочерли, С. Мумтаз, Ю.В. Чеменземинли, А. Абид, Г. Араслы, А. Сафарли и других.

**Ключевые слова:** классика, наследие, исследование, литературоведение, родной язык.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 365-376*

# PROBLEMS OF STUDYING CLASSICAL LITERARY HERITAGE AND CONTEMPORARY SCIENTIFIC APPROACHES

**NERMIN RZAYEVA**

**ABSTRACT**

The article examines the history of studying the classical literary heritage. The history of researching our classical heritage is as old as the history of literature itself. Literary and critical thought originates from commentaries, tazkiras (biographical anthologies), and later from the works of masters of literary expression. Since the 19th century, discussions began about the activities of M.F. Akhundov in the field of literary studies, as well as the role of literary circles in the development of artistic thought. From the 20th century onward, systematic research in this field intensified significantly, and the history of literature took shape as an academic discipline. The article mentions the contributions of such prominent scholars as F.B. Kocharli, S. Mumtaz, Y.V. Chemenzeminli, A. Abid, G. Arasly, A. Safarli, and others.

**Keywords:** classics, heritage, research, literary studies, native language.

## Giriş

Klassik ədəbiyyat termini təkcə bir dövr və ya üslub anlayışını deyil, həm də yüksək estetik və mənəvi dəyərləri ifadə edən ədəbi sistemin bütövlüyünü ehtiva edir. Bu termin Qərb humanitar elmlərində antik Yunan və Roma ədəbi irsinə aid edilsə də, Şərq ədəbiyyatında klassik irs dedikdə, əsasən Xll-XVll əsrləri əhatə edən və bədii fikir tarixində silinməz iz qoymuş şair və mütəfəkkirlərin (Nizami, Füzuli, Nəsimi, Xətai və b.) yaradıcılığı nəzərdə tutulur. Görkəmli ədəbiyyatşünas, akademik Kamal Talıbzadə "Ədəbi tənqidi fikrimizin qaynaqları və əsas istiqamətləri (Xl-XVlll əsrlər)" məqaləsində yazır: "Orta əsrlərdə Azərbaycan ədəbi fikri üç istiqamətdə inkişaf etmişdir." Birinci istiqamətə Xətib Təbrizinin (Xl əsr) "Şərh divan əl həmasə", "Şərh divan Əbu Təmmam", "Əl kafi fi elmey, əl-əruz vəl qəvafi", Yusif Xoylunun (Xll-əsr) "Tənvir", Nəsrəddin Tusinin (Xlll-əsr) "Mizanül-əşar", "Əsasül-iqtibas", Əssar təbrizinin (XlX əsr) "Əl vafi fi-tedadil-qəvafi", Şərəfəddin Həsən Rami Təbrizinin (XlX-əsr) "Həqayiqül-hədaiq", "Ənisül-üşşaq", Vahid Təbrizinin (XV əsr) "Risaleyi-cəmi- müxtəsər", Məhəmməd Rəfi Dost Məhəmməd oğlunun (XVll əsr) "Müşrəbül-əfşan", Mirzə Əbutalib Təbrizinin (XVlll əsr) "Xilasətül-əfkar" kimi poetika kitabları, estetik risalələri, ayrı-ayrı bədii əsərlərə yazılmış şərhləri daxildir. Orta əsr Azərbaycan ədəbi fikrinin ikinci əsas mənbəyi təzkirələrdir. Təzkirələrdə bədii nümunələrə geniş yer verilsə də, müəlliflər çox zaman topluya düşən sənətkarların yaradıcılığı haqqında fikir söyləmiş, tərcümeyi-halları haqqında məlumat verməyə çalışmışlar... Təzkirə Azərbaycan ədəbiyyatşünaslığının ən uzunömürlü, həm də ən kütləvi şəkillərdən biridir. Şərəfəddin Rami, Sadiq bəy Sadiqi, Əhdi Bağdadi, Sam Mirzə, Lütfəli bəy Azər kimi

təzkirə müəllifləri təkcə Azərbaycanda yox, Yaxın və Orta Şərqdə də məşhur olmuşlar.

Klassik Azərbaycan ədəbi tənqidinin üçüncü əsas mənbəyi bədii söz ustalarının əsərləridir. Orta əsr sənətkarları, bir qayda olaraq, öz bədii əsərlərində ədəbiyyatın məqsəd və vəzifələri, mahiyyəti haqqında çox qiymətli fikirlər söyləmişlər. (8. Səh 8)

Azərbaycan ədəbi tənqidinin tarixi qaynaqlarını, onun inkişaf mərhələlərini araşdıran K.Talıbzadənin bu mülahizələri ilə qeydsiz razılaşırıq. Xüsusilə ədəbi fikrimizin adları çəkilən müəlliflərin poetik kitabları, estetik risalələri, şərhləri və təzkirələrdəki fikirləri təkcə tənqidin qaynaqları deyil həm də ədəbiyyat tarixçiliyinin ilkin qaynaqları hesab etmək olar. Çünki orta əsrlərdə professional mənada nə ədəbi tənqid, nə də ədəbiyyat tarixi anlayışları mövcud idi ona görə də ədəbi tənqidə şamil olunan bir çox məsələlər eynilə ədəbiyyat tarixinə də aid edilə bilər.

Ədəbiyyatın araşdırılmasının başlanğıcı olan Şərhçilik (şərh yazmaq, təfsir etmək) klassik mətnlərin mənaca izah edilməsi, dərinləşdirilməsi və anlaşılmasını asanlaşdırmaq məqsədilə yazılmış izahlardır. Şərhçilik klassik mətnlərin qorunmasında, tədrisində və yeni nəslə çatdırılmasında mühüm vasitə olmuşdur. Xətib Təbrizinin yaradıcılığına həsr olunmuş tədqiqatlarda onun Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığa gətirmiş olduğu yeniliklər aşağıdakı kimi səciyyələndirilmişdir

Birincisi- alim "Şərh elminin məqsəd və vəzifələrini ilk dəfə olaraq elmi sürətdə müəyyənləşdirərək, şerin hərtərəfli təhlil metodunu irəli sürmüş və öz elmi yaradıcılığında bütün ictimai elmlərin nailiyyətlərindən istifadə etmişdir.

İkincisi - obyektiv ədəbi tənqidin əsasını qoymuş, hər cür təəssübkeşlik və qərəzçiliyə düşman olmuşdur.

Üçüncüsü - Bədii yaradıcılıqda məzmuna birincilik verərək, formanı ondan asılı hesab etmişdir. (11, səh 57).

Xətib Təbrizinin şərhlərində irəli sürmüş olduğu bir çox nəzəri mülahizələr bu gün də ədəbi estetik dəyərini mühafizə etməkdədir. Belə ki, tənqidçinin "şeiri təhlil etmək, onu yazmaqdan çətindir", "şeir şairin dövrü ilə bağlı tədqiq edilməlidir", "Bədii əsərin ideya və məzmunca təhlili əsasdır" kimi məsələlər barədə mülahizələri bu baxımdan səciyyəvidir. Maraqlıdır ki, Xətib Təbrizi şairin istedadını sənətkarlıqla yanaşı, həmçinin bədii zövq baxımından dəyərləndirmişdir. Əbu Təmmamın tərtib etdiyi "Həmasənin şərhi" əsərini şairin poetik yaradıcılığı ilə qarşılaşdıraraq belə nəticəyə gəlmişdir ki: "Əbu Təmmam "Həmasə"sində öz şeirlərində olduğundan daha böyük şairdir. (19. Səh 54) Bu fikir klassik ədəbiyyatda şərhçilik mədəniyyətinin necə dərinə getdiyini və şairlərin yalnız poetik deyil, onların fikri arxa planına da necə nüfuz edildiyini göstərir.

Şərhçilik fəaliyyətində şairin fikirlərini və poetik xüsusiyyətlərini anlamaq məqsədi güdülürdüsə, təzkirələr bu anlayışı daha da genişləndirərək, onu ədəbi

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 365-376*

şəxsiyyətin bioqrafik, mənəvi və bədii portreti səviyyəsinə yüksəldirdi. "Təzkirə" termini ərəb mənşəli olub xatırlama, yada salma mənalarını ifadə etməkdədir. Klassik ədəbi janrlardan biri kimi təzkirələr bütün Yaxın Şərqdə Türkiyədə, Orta Asiyada və Azərbaycanda geniş yayılmışdır. Ərəb ədəbiyyatşünaslığında "təzkirə" termini əvəzinə "təzakat" istilahı işlənməkdədir. Türk və fars ədəbiyyatşünaslığında isə "təzkirə" termini daha çox populyarlıq qazanmışdır. Əlbəttə, Azərbaycan ədəbiyyatı tarixində yaranmış bütün təzkirələr elmi-nəzəri baxımdan eyni səviyyədə deyildir. Çünki bir sıra təzkirələr yalnız poetik toplu kimi düşünüldüyündən orada təmsil olunan müəlliflər haqqında sistemli məlumat verilməmişdir. Azərbaycan ədəbiyyatşünaslığında nəzəri-tənqidi və elmi-bioqrofik faktlarla zəngin olan bir sıra təzkirələr yaranmışdır: Bu təzkirələr içərisində Əhdi Bağdadinin "Gülşənüş-şüəra", İbrahim Mirzənin "Fərhəngi-İbrahim", Sam Mirzə Səfəvinin "Töhveyi-Sami", Sadiq bəy Əfşarın "Məcməül-xəvas", Lütfəli bəy Azərin "Atəşgədə", Seyid Əzim Şirvaninin "Təzkireyi-Seyid Əzim", Mir Mövsüm Nəvvabın "Təzkireyi-Nəvvab", Məhəmmədəli Tərbiyətin "Daneşməndani-Azərbaycan" təzkirələri xüsusi yer tutur.
Orta əsr təzkirəçiləri, bir növ ədəbiyyat tarixçilərinin vəzifələrini yerinə yetirmişlər. Bu mənada Azərbaycan ədəbiyyatı tarixinin bünövrəsi hesab oluna bilər. Təzkirələrin ən mühüm əhəmiyyəti ilk mənbə və qaynaq rolunu oynaması ilə bağlıdır. Xətib Təbrizi, Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Saib Təbrizi, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və digər Azərbaycan şairləri haqqında bir çox elmi əhəmiyyətə malik olan məlumatlar ilk dəfə olaraq təzkirələrlərdə əksini tapmışdır. "Təzkirələrdə müəlliflər haqqındakı çox qısa məlumatlar faktik materiallar əsasında yazılıb bioqrafik və biblioqrafik səciyyə daşıyırdı. Çox vaxt təzkirəçi bu və ya başqa yazıçının adını, təxəllüsünü, doğum və ölüm tarixlərini, yerini və onun bəzi əsərlərinin adını göstərməklə kifayətlənirdi. Bundan sonra şairin əsərlərindən bir-iki nümunə verməklə təzkirə müəllifi öz işini bitmiş hesab edirdi. (15, səh10). XVlll əsrdə yaşayıb yaratmış Lütfəli bəy Azərin "Atəşkədə"si ədəbiyyat tarixinin mühüm mənbələrindən olan təzkirəçilikdə xüsusi bir mərhələ təşkil edir. (6. səh 14). Tədqiqatlarda göstərildiyi kimi, Azərbaycanda və Şərq aləmində qədim dövrlərdən XVlll əsrin ortalarına qədər coğrafi bölgü əsasında ayrı-ayrı ölkələr üzrə yaşayıb-yaratmış 842 sənətkar haqqında geniş məlumatları əhatə edən "Atəşkədə" təzkirəsi öz məndəricəsinə, tərtib prinsiplərinə görə təzkirəçiliklə ədəbiyyatşünaslıq arasında körpü təşkil edən qiymətli bir mənbədir. (14. Səh 71)

Təzkirələrin ən son nümunələrindən biri kimi Məhəmmədəli Tərbiyətin "Daneşməndani - Azərbaycan" (Görkəmli elm və sənət adamları) əsərinə diqqət yetirmək kifayətdir. "M.Tərbiyətin Azərbaycan mədəniyyətinə etdiyi böyük xidmətlərindən biri də odur ki, o, F.Köçərlinin qarşısına çıxan əsas maneəni öz yaradıcılığı ilə aradan qaldıraraq, Azərbaycan ədəbiyyatı tarixindəki bir çox boşluğu doldura bilmişdir. Onun görkəmli əsərlərindən "Daneşməndani -Azərbaycan" bu

baxımdan çox-çox maraqlıdır. Bu kitab Azərbaycanın şair yazıçı, filosof, təzkirəçi, ədəbiyyatşünas, rəssam, münəccim, mühəndis, memar riyaziyyatçı, nəqqaş, dilçi, və maarifçi alimlərindən yazılmış ensiklopediyadır. (10. səh 10)

Daneşməndani - Azərbaycan əsərini təzkirəçiliyin son uğurlu bir nümunəsi hesab etmək olar. Doğrudan da, bu əsər qədim və orta əsrlər ədəbiyyat tarixini qələmə almaq istəyən bir müəllif üçün ən etibarlı mənbə ola bilər. Elə müəllif var ki, bu əsərdə yalnız bir neçə cümlə ilə yad olunur və onların ədəbiyyat tarixi üçün elə bir önəmi yoxdur. Ancaq ədəbiyyat tarixində dərin izlər buraxmış sənətkarlara gəlincə, təqdim olunan məlumatlar yetərincə qənaətbəxş hesab oluna bilər. Bu mənada Arif Ərdəbili, Mirzə Fətəli Axundzadə, Bəhmənyar, Qövsi Təbrizi, Eylənqüzzat, Hafiz Şirazi, Əvhədi, Ətiqi Təbrizi, Zeynalabdin Şirvani, Zərdüşt, Zülfüqar Şirvani, Gülşəni, Ləli, Mahmud Şəbüstəri, Məhsəti Gəncəvi, Mücirəddin Beyləqani, Nizami Gəncəvi, Sadiqi Əfşar, Saib Təbrizi, Səfiyəddin Urməvi, Tufeyli, Məhəmməd Füzuli, Xaqani Şirvani, Həqiri, Hümam Təbrizi, Şəms Təbrizi, Şərif Təbrizi kimi sənətkarlar haqqında verilən məlumatlar çox qiymətlidir və istənilən zaman qədim və orta əsrlər ədəniyyat tarixi üçün ilk mənbə kimi istifadə oluna bilər. (18)

Təzkirələr, cünglər, müntəxabatlar nə qədər qiymətli mənbələr olsalar belə ədəbiyyat tarixinin yerini tuta bilməmişlər. 19-cu əsrdə təzkirəçilikdən ədəbiyyat tarixçiliyinə doğru dönüş baxımından ilk addımlar atılmışdır. Bu mənada görkəmli yazıçı, tarixçi alim və ictimai xadim Abbasqulu Ağa Bakıxanov (1794-1846) Azərbaycan milli ədəbiyyat tarixi yaratmağın ilk təşəbbüskarıdır. Böyük mütəfəkkirin məşhur "Gülüstani-İrəm" kitabında verilmiş "Şirvan və ona qonşu olan vilayətlərdə yetişmiş təlifat sahibi, və ya başqa bir məziyyətə malik şəxslərin tərcümeyi-halları haqqında" adlanan bölmədə bir sıra tanınmış ədəbiyyat adamlarının həyat və yaradıcılığına dair məlumatlar və təhlillər öz əksini tapmışdır. Abbasqulu Ağa Bakıxanov ölkəmizin çoxəsrlik tarixinə həsr edilmiş "Gülüstani-İrəm" kitabını yazmaqla Azərbaycan tarixşünaslığının Heredotu olmaq vəzifəsini həyata keçirmişdir.( 6. Səh 15)

Kitabda ədəbiyyata dair baxışlar tarixi elmi informasiya ilə bir-birini tamamlayır. Kitabda qeyd olunur: "Hər bir tayfanın kəmalat dərəcəsini, vəziyyət və hallarının gözəlliyini, onların təlifatından və sair əsərlərindən gözəlcə anlamaq olar... Şamaxı, Gəncə və Bərdə şəhərlərində olan türbələr, məzarlar və bir çox başqa yerlərdə olan məşhur şeyxlərin və hörmətli fazil kimsələrin qəbirləri göstərir ki, bu ölkə həmişə arif və alimlərin vətəni olmuşdur. Onların bir çoxu elm və hünəri ilə bütün dünyada şöhrət qazanıbdır. (2, səh 204)

XlX əsrdə Azərbaycan ədəbiyyatşünaslığının yeni tarixi mərhələsi Mirzə Fətəli Axundzadəyə məxsusdur. M.F.Axundzadə əsasən ədəbi tənqidçi və ədəbiyyat nəzəriyyəçisi kimi fəaliyyət göstərmişdir. Akademik M.C.Cəfərov onu "Şərqin ilk ədəbiyyat tənqidçisi və ədəbiyyat nəzəriyyəsi elminin əsaslarını yaratmış qüdrətli şəxsiyyət kimi qəbul etmişdir. (12, Səh. 143) Axundzadənin məzmun və formanın

vəhdəti barədə fikirləri Şərq ədəbiyyatı tarixinin təhlili ilə gəlinmiş haqlı bir nəticədir: "Həm məzmun gözəlliyinə, həm də ifadə gözəlliyinə malik olan nəzm (Firdovsinin "Şahnamə"si Nizaminin "Xəmsə"si və Hafizin "Divan"ı kimi) nəşə artırıcı, həyəcanlandırıcı olub, hər kəs tərəfindən bəyənilir. (13, s 121)

Azərbaycan ədəbi-nəzəri fikrinin inkişafında Ədəbi-məclislərin mühüm rolu olmuşdur. Bu məclislər XlX əsrin əvvəllərində formalaşmış, təxminən 1920-ci ilə - Azərbaycanın Sovet işğalına qədər fəaliyyət göstərmişdir. Azərbaycanda ədəbi məclislərin fəaliyyəti ilə bağlı ilk dəfə Firidun bəy Köçərlinin 1903-cü ildə Tiflisdə rus dilində nəşr etdirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı monoqrafik tədqiqatında məlumat verilmişdir. Sonralar bu sahədə dərindən araşdırmalar aparılmış, onun ayrı-ayrı görkəmli üzvləri haqqında məlumatlar zənginləşdirilmişdir. Ədəbi məclislər Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərirdilər: "Gülüstan" (Quba), "Divani-hikmət" (Gəncə, Tiflis), "Əncümənüş-şüəra" (Ordubad) "Məclisi üns", "Məclisi-fəranuşan" (Şuşa), "Beytüs-Səfa" (Şamaxı), "Fövcül-Füsəha" (Lənkəran) "Məcməüş-Şüəra" (Bakı). Ədəbi məclislər Azərbaycanda vahid ədəbi prosesin formalaşmasına təkan vermiş bədii-estetik fikri gücləndirmişdir.

Ədəbi məclislərin Azərbaycan ədəbiyyatının və ədəbi tənqidi fikrinin inkişafında əhəmiyyəti bir neçə məqamı ilə diqqəti çəkir. Hər şeydən əvvəl, ədəbi məclislərdə Azərbaycan və Şərq şerinin poetikası öyrənilir, onun mənəvi əsasları mənimsənilirdi. Digər tərəfdən ədəbi məclislər Azərbaycanda pərakəndə, bir-birindən təcrid olunmuş şəkildə mövcud olan ədəbi mühitləri yaxınlaşdırır, vahid ədəbi prosesin yaranmasına təsir göstərirdi. Ədəbi məclislər eyni zamanda, ədəbi tənqidi fikrin və ədəbiyyatşünaslıq elminin peşəkar səviyyədə inkişafını tənzimləmişdir. Yuxarda adlarını çəkdiyimiz təzkirələr (19-cu əsrdə yarananlar) "Təzkireyi-Seyid Əzim" (Seyid Əzim Şirvani), "Təzkireyi Nəvvab" (Mir Möhsün Nəvvab), və başqa təzkirələr məhz ədəbi məclislərin fəaliyyəti sayəsində mümkün olmuşdur. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslığı müxtəlif istiqamətlərdə fəaliyyət göstərmişdi. Bu dövr ədəbiyyatşünaslarını daha çox klassik irsə münasibət, xəlqilik, müasirlik, realizm məsələləri düşündürmüşdür. Firidun bəy Köçərlinin (1863-1920) ədəbiyyatşünaslıq fəaliyyəti Azərbaycan nəzəri estetik fikrinin mahiyyət və istiqamətlərini bütün yönləri ilə əks etdirmişdir

Bilindiyi kimi, Firudin bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixinin ilk sistemli tədqiqatçısıdır. "Azərbaycan ədəbiyyatşünaslığı F.Köçərliyə qədər hələ də təzkirə, cüng və müntəxabat şəklindən uzağa gedə bilməmişdi." (5, səh 6). Azərbaycan ədəbiyyatının tarixini yazmaq sahəsində ilk təşəbbüs F.Köçərliyə məxsusdur. O, Azərbaycan ədəbiyyatşünaslığında M.F.Axundzadədən sonra ən böyük simadır. Özünün 35 illik ədəbi, elmi-pedoqoji, publisist fəaliyyətinin nəticəsi olan zəngin bir irs qoyub getmişdir. F.Köçərli "Azərbaycan tatarlarının ədəbiyyatı", "Mirzə Fətəli Axundov", "Balalara hədiyyə" əsərlərinin, iki cildlik məşhur "Azərbaycan ədəbiyyatı tarixi materialları"nın və bir sıra başqa görkəmli əsərlərin

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 365-376*

müəllifidir. Bunlardan başqa köçərli ədəbi şəxsiyyətlər, bədii əsərlər, dərslik və tərcümələr haqqında, sülh və xalqlar dostluğu, qadın azadlığı, habelə məişət mövzularında bir sıra maraqlı məqalələr yazmışdır. (3, Səh 3) Köçərli yaradıcılığının zənginliyi barədə geniş və əhatəli danışmaq mümkündür. Lakin onun ədəbiyyat tarixçiliyi sahəsində gördüyü işlər xüsusilə diqqətəlayiqdir. Köçərli bu missiyanı hələ gənclik illərindən öz üzərinə götürmüş müxtəlif dövrlərə aid ədəbi faktları və mənbələri toplayaraq ədəbiyyat tariximizi sistemli şəkildə araşdırmağa başlamışdır. O, dövrünün mühüm bədii mətnlərini və elmi materiallarını mütaliə etmiş, müxtəlif mövzularda elmi-publisistik məqalələr qələmə almışdır.

Akademik Kamal Talıbzadə yazır: "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabçasında Köçərlinin ədəbi fəaliyyətinin birinci dövrünə məxsus məhdudiyyətlər öz əksini tapmışdı. O, hələ Azərbaycan ədəbiyyatının təşəkkülünü kifayət qədər aydın təsəvvür etmədiyindən, onun yaranmasında fars mədəniyyəti və ədəbiyyatının rolunu həddindən artıq şişirdirdi. Nəsimi, Xətayi, Füzuli kimi Azərbaycan klassikləri hələ onun nəzərini cəlb etmirdi. Buna görə də köçərli Azərbaycan ədəbiyyatını Vaqifdən başlayır və onu "tatar" (Azərbaycan K.T) ədəbiyyatının banisi adlandırırdı. (9, səh 437)

Bu yanaşma Azərbaycan ədəbi fikrinin ilk qaynaqlarına birtərəfli (dil yönümlu-R.N) çərçivədən baxıldığını göstərir. Burada Azərbaycan ədəbiyyatının təşəkkülü tarixi barədə bəzi məlumatları vermək istərdik. İmamverdi Həmidovun "Azərbaycan ədəbiyyatı klassikləri ərəb ədəbiyyatşünaslığında" kitabınının ön sözündə Yaşar Qarayev yazır: Milli mənəvi irsimizin ərəbdilli dövrünün və onun bütünlükdə İslami Sivlizasiya ilə əlaqələrini ən dərindən tədqiq etməyin əhəmiyyəti indi xüsusilə artır".

İmamverdi Həmidovun yuxarda qeyd etdiyimiz kitabında Azərbaycan ədəbiyyatının tarixi kökləri sistemli şəkildə tədqiq olunmuşdur. Orada qeyd olunur: Yaxın və orta şərq xalqlarının ədəbiyyatında şu'ubilik və şu'ubiyyə ədəbiyyatı ayrıca bir yer tutur. Bu fikir axını Xll yüzillikdən əvvəlki qabaqcıl fikir axınlarını və bədii-ədəbi qayələri sonrakı ədəbi və məfkurəvi proseslə birləşdirən və ədəbiyyatı xalqın ictimai-siyasi azadlığı uğrunda gedən vuruşlarda kəsərli silaha çevirən ədəbi, məfxurəvi və siyasi bir prosesdir. Şu'ubilik ədəbiyyatının ən yaxşı nümunələrini Azərbaycanın şu'ubi şairləri yaratmışlar... Vll yüzilliyin ikinci yarısında yayılmağa başlayan şu-ubiyyə fikri-ədəbi cərəyanı İslam dininin əsasları üzərində qurulmuş xəlifəlik dövlət sistemində qanuniləşdirilmiş ərəb ağalığına qarşı ərəb olmayan xalqların fikir, düşüncə və idrak sahəsində hüquqlarının və məqamlarının tələblərindən doğmuşdur... Şuubiyyə cərəyanını hərəkətə gətirən qüvvəni təkcə İranla bağlamaq düzgün deyil. Ona görə ki, bu fikri-ədəbi hərakat Əməvi xəlifəliyinə tabe edilmiş xalqların hamısının ərəblərlə hüquq bərabərliyinə nail olmaq uğrunda mübarizəsindən doğmuşdu... Yarandığı ilk mərhələdən şuubiyyənin başlıca hərəkətverici qüvvəsi Məvalilər (İslam dinini qəbul etməli və ərəb qəbilələrinə

sığınmalı olan ərəb olmayan millətlər) təşkil edirdi... Bu dövrdə ərəblər arasında "mavali" sözü ara sıra "əcəm" sözü ilə sinonim kimi işlədilmişdir. Ərəb ağalığı altında əzilən, ağır vergilərdən əziyyət çəkən Məvalilər yeni müsəlmanların ərəblərlə bərabər hüquqlarını təmin etmək üçün çıxışlarda fəal iştirak edirdilər. Və bu tələbləri, irəli sürərkən onlar Qurandakı hadisələrə söykənirdilər. Burada deyilir: İslamı qəbul edənlərin hamısı qardaşdırlar. İnsanlar Adəmdən törəmiş Adəm də torpaqdır. Məvalilər qüvvəsindən varlı təbəqələr, o cümlədən İran zadəganları öz rəqiblərini-ərəb aristokratiyasını siyasi səhnədən uzaqlaşdırmaq üçün istifadə etməyə başladılar... Abbasi xəlifəliyinin hakimiyyətə gəlməsi ilə güclənən İran zadəganları ifrat sağ-şuubilik qolunun yaranmasına səbəb oldu. Onlar öz çıxışlarında ərəblərə, ərəb xalqının ünvanına təhqiramiz ifadələr işlədir, belə əhval ruhiyəli əsərlər yazırdılar. Ancaq hərəkatın başlıca hərəkətverici qüvvələri üçün məlum oldu ki, xəlifəlik sülaləsinin dəyişməsi onların həyatı üçün heç bir yenilik gətirmədi.

Məvalilər Vlll yüzilliyin 2-ci yarısında ərəblərlə yanaşı bədii yaradıcılıqda bacarıqlarını sınayaraq dövrün püxtələşmiş şairləri səviyyəsinə qalxdılar və "əl-bədii" - "yeni metod" (M.Y.Kraçkovıski) yaratdılar. Şuubilik ədəbiyyatı və məfkurəvi axını Yaxın Şərq şeri üçün böyük bir qaynaq olmuş, onun gələcək inkişafının sarsılmaz dayaqlarından birinə çevrilmişdir. Azərbaycan renessans ədəbiyyatı və renessans düşüncəsi öz təşəkkül və inkişafında qabaqcıl şuubiliyi və onun İsmayıl Yasər oğlu kimi poema nümayəndələrinin açdıqları "yeni yol" bədii yolunu yeni qayə, yeni məqsəd, yeni ictimai-siyasi şəraitdə izləmiş və irəliyə aparmışdır. (7, Səh-10-25). Bu baxımdan Azərbaycan ədəbiyyatının başlanğıc mərhələsini yalnız bədii formaların yaranması ilə deyil,həm də ictimai-mədəni mübarizənin bədii əksi kimi qiymətləndirmək vacibdir. Bu dövr ədəbiyyatı, özündə həm də xalqların bərabərliyi və mədəniyyətin milli kimliyin əsas göstəricisi kimi önə çıxarılması ideyasını daşıyır. Məvali şairlər yeri gəldikcə özlərinin keçmiş irsinin bir sıra qabaqcıl meyllərini xəlifəlik dövrünün həyatı ilə qarşı-qarşıya qoyurdular. Onlar cəmiyyət üçün ayrıca yeni bir yol seçməyin vaxtı gəlib çatdığını oxuculara aşılayırdılar. Buna görə də öz keçmiş mədəniyyətinin uğurları ilə öyünmək bir sıra məvali şairlərin əsərlərində özünə yer tapır. Bu baxımdan İsmayıl İbn Yəsar ədəbiyyatda ədalətli hökmdar sürəti kimi verilən Ənüşirəvanı və Xosrovu Əməvi xəlifələri üçün nümunə gətirirdi. İsmayıl Yasər oğlunun şuubi poeziyası üçün açdığı bu yolu Xaqani və Nizami daha yeni-yeni bədii cizgilərlə zənginləşdirmişlər. (7, Səh 18)

Yenidən Firidun bəy Köçərli yaradıcılığına qayıdaq$ qeyd etməliyik ki, F.Köçərlinin "Azərbaycan ədəbiyyat materialları" (4) professional ədəbiyyat tarixinin yaradılmasında ilk təşəbbüs kimi alqışlanmalı idi və belə də oldu. Azərbaycan ədəbiyyatşünaslığında yeni bir mərhələ başlanırdı və bu mərhələni təzkirəcilikdən ədəbiyyat tarixçiliyinə keçid mərhələsi kimi səciyyələndirmək olar. Çünki ədəbiyyat tarixini yaratmaq, ənənləri qorumaq, hifz etmək deməkdir.

F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" materialları bir neçə baxımdan son dərəcə dəyərli bir hadisə idi:
1) Bu sahədə bir ənənənin əsasını qoydu
2) Gələcək ədəbiyyat tarixçiləri üçün etibarlı qaynaq rolunu oynayırdı
3)Azərbaycan ədəbiyyatının sistemli elmi prinsiplər əsasında öyrənilməsinin əasını qoydu
4) Ədəbi şəxsiyytlərin yaradıcılığına düzgün, obyektiv meyarlarla yanışlmasını, təhlil mədəniyyətini ortaya qoydu.
Bu dövrdə ədəbiyyatşünaslıq araşdırmları içərisində Yusif Vəzir Çəmənzəminlinin 1919-cu ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan ədəbiyyatına bir nəzər" adlı monoqrafik tədqiqatı əhəmiyyətli yer tutur. Y.V.Çəmənzəminlinin əsəri bir neçə cəhətinə görə yüksək dəyərləndirilə bilər.

Y.V.Çəmənzəminli bu işi sistemli şəkildə həyata keçirə bilməmişdi. Lakin ədəbiyyat tarixinin ayrı-ayrı qaranlıq səhifələrinin işıqladırılmasında böyük rol oyamışdır. T.Hüseynoğlunun fikrincə, "Y.Vəzir Azərbaycan tarixinə dair "Azərbaycan və azərbaycanlılar" adlı böyük bir əsər yazmağı planlaşdırırmış. O, bu əsərin yalnız "Azərbaycan və azərbaycanlılar", "Milli və mədəni işlərimiz", "Xarici siyasətimiz" adlı hissələrini yazıb çap etdirə bilmişdir. Azərbaycan ədəbiyyatına bir nəzər kitabı da həmin əsərin bir hissəsini təşkil edir (17, səh 297).

Y.V.Çəmənzəminli bu fikirdə idi ki, hər bir xalqın ədəbiyyat tarixi ana dilində yaranan bədii örnəklərlə başlamalıdır. Bu mənada o, Azərbaycanın fars dilində yazıb yaradan sənətkarlarının – Xaqani Şirvaninin, Nizami Gəncəvinin xidmətlərini etiraf etsədə, ədəbiyyat tarixinin bu müəlliflərlə başlamasını mümkün hesab etmirdi. Fikirlərini sübut etmək üçün dünya ədəbiyyatı tarixindən gətirdiyi nümunələr diqqət yönəldərək yazırdı: "Alman şairi Henrix Heyne irqən yahudi idi. Lakin heç kəs ona yahudi şairi demir. Çünki əsərlərini alman dilində yazıb". "Azərbaycan ədəbiyyatına bir nəzər" əsərini İmadəddin Nəsiminin yaradıcılığı ilə başlayan müəllif onu qüdrətli qələm sahibi, "ədəbi dövrün başçısı" kimi səciyyələndirmişdir. T.Hüseynoğlu həmin qüsurları bu şəkildə izah edir: "Y.V.Çəmənzəminli müəyyəm metodoloji yanlışlıq nəticəsi olaraq yazılı ədəbiyyatımızın tarixini Nəsimi ilə başlayır. Çəmənzəminli bu kitabı yazarkən vətəni Azərbaycandakі bir çox mənbələrdən istifadə etməmişdir. Bunun səbəbi onun bu zaman Türkiyədə yaşaması idi. Əsər də ilk dəfə İstanbulda nəşr edilmiş və Avropa ölkələrinə yayılmışdır. (17, səh 306)

Cümhuriyyət dövrü araşdırmalarından Adilxan Ziyadxanın "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" (1919) əsəri də milli ədəbiyyat tarixinin öyrənilməsi baxımından maraq doğurur. Qeyd edək ki, Adilxan Ziyadxan Yusif Vəzir Çəmənzəminlidən fərqli olaraq Azərbaycan ədəbiyyatının mənşəyini ana dilli ədəbiyyatla başlamamış, azərbaycanlı müəllifləri ərəb, fars dillərində yaratmış olduğu ədəbi irsi də milli ədəbiyyatımızın tərkib hissəsi kimi tədqiqata cəlb etmişdir.

Biz bu istiqamətlə tamamilə razıyıq. Azərbaycan ədəbi fikri tarixinin ilkin mərhələlərini araşdırarkən ortaya çıxan mühüm məsələlərdən biri də milli ədəbiyyatın başlanğıcını hansı kriteriyalara əsasən müəyyənləşdirməkdir: dil, mövzu, müəllifin mənsub olduğu xalq, yoxsa əsərin bədii-idrak yükü və milli mədəniyyətə bağlılığı?

Bu müstəvidə hazırkı dissertasiya işində irəli sürülən mövqeyə görə, Azərbaycan ədəbiyyatının başlanğıc mərhələsi onun hansı dildə yazılmasından deyil, milli düşüncəyə və mənəvi identikliyə bağlılığından qaynaqlanmalıdır. Ərəb və fars dillərində yazmış ilk klassiklər - məsələn, Bəlağani, Qətran Təbrizi, Nizami Gəncəvi və digərləri - bədii estetik fikrin formalaşmasında əhəmiyyətli rol oynamış, eyni zamanda Azərbaycan ərazisində yaşayan xalqın mədəni-tarixi kimliyini bədii formada ifadə etmişlər. Tədqiqatçıların bir qismi dil göstəricisini yeganə meyar kimi göstərməkdənsə, ədəbi bədii irsin milli mədəniyyətlə bağlarını əsas götürməyə üstünlük verir. Çünki Azərbaycan klassik ədəbiyyatı əsasən ərəb və fars dillərində yaradılsa da, bu əsərlərdə ifadə olunan dəyərlər, obrazlar sistemi, etik və estetik ideallar xalqımızın mənəvi yaddaşının daşıyıcısıdır. Görkəmli ədəbiyyatşünas Salman Mümtaz XII əsrdən üzü bəri ədəbiyyatımızın bir çox klassikləri haqqında çox samballı məqalələrin müəllifidir və bu məqalələrdə o, oxucuya məlum olmayan faktları nəzərə çarpdırırdı. Xüsusilə tədqiq etdiyi, haqqında söz açdığı sənətkarların həqiqətə uyğun tərcümeyi-hallarının hazırlanmasında, ədəbi-elmi ictimayyətə təqdim olunmasında Salman Mümtazın əvəzsiz rolu olmuşdur.(16)

S.Mümtazın gördüyü işləri sadalayanda belə adamı təəccüb buyurur. Çünki o, təkbaşına, yalnız özünə arxalanaraq böyük bir elmi idarənin, kollektivin belə öhdəsindən çətin gələcək işi boynuna götürmüş və bu işi çox məsuliyyətlə yeri yetirməyə çalışmışdır. (1, səh – 111)

F. Köçərlinin, S.Mümtazın və Y.Vəzirin Azərbaycan ədəbiyyat tarixi ilə bağlı əsərlərini biz milli ədəbiyyat tarixçiliyinin ilk mərhələsi kimi səciyyələndirə bilərik. Bu mərhələdə həmin ədəbi-tarixi missiyanın bünövrəsi qoyulur, təməl daşları hörülür. Yeni tipli ədəbiyyatşünalığın yaranması ilk növbədə, ədəbiyyat tarixinin yaradılmasını da şərtləndirir. Ədəbiyyat tarixçiliyinin ilk mərhələsi xalqımızın əsrlər boyu yaratdığı zəngin mənəvi sərvətlərin qiymətləndirilməsi, elmi təsnifatı baxımından çox ciddi əhəmiyyət kəsb edirdi və bu sahədə müəyyən təcrübə əldə olunması gələcəkdə öz bəhrəsini verəcəkdi. Azərbaycan ədəbi tənqidi sovet dövründə özünəməxsus mürəkkəb və keşməkeşli bir yol keçmişdir və bəhs olunan dövrün estetik prinsipləri, siyasi şərtləri nəzərə alınmadan həmin dövr tədqiqatlarını bütün yönlərilə dəyərləndirmək mümkün deyildir. Ölkədə sosializm ideyalarını həyata keçirmək naminə kapitalizmdən, keçmiş cəmiyyətdən, miras qalan nə varsa ona qarşı sərt amansız bir münasibət hökm sürür və bu münasibət tək ideoloji səviyyədə deyil, həm də sinfi-siyasi və inzibati müstəvidə həyata keçirilirdi. Klassik ədəbiyyata inkarçı münasibət, vulqar sosiologizmin yürütdüyü siyasət nəticəsində

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2025
Səh. 365-376

Nizami, Füzuli, Nəsimi və s. görkəmli şairlərimiz gözdən salınır, keçmişin qalığı hesab edilirlər. Əlbəttə, klassik ədəbiyyata qarşı yönələn bu fikirlər uzun müddət davam edə bilməzdi. Getdikcə bu münasibətin, bu inkarçılığın yalnız ötəri bir dalğa olduğu aşkara çıxdı, ədəbiyyatın sinfi mövqedən deyil, xalqın tarixi, keçdiyi mübarizələr yolu, həyata, dünyaya estetik münasibəti baxımından dərk və şərh olunması ön plana keçdi. Doğrudur, keçmişə, klassik ədəbiyyata yabançı münasibət bir müddət öz təsirini saxladı, qırxıncı illərdə "Müxtəsər Azərbaycam ədəbiyyatı tarixi" iki cildliyində bəzi klassik sənətkarların yaradıcılığının birtərəfli qiymətləndirilməsi, əllinci illərin əvvəllərində "Dədə Qorqud" dastanına qarşı başlanan kompaniya bu təsirin təzahürü idi. Lakin Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında yeni bir mərhələnin başlandığı da göz önündə idi. Bu sahədə Həmid Araslı, Feyzulla Qasımzadə, Mikayıl Rəfili, Mir Cəlal Paşayev, Məmməd Cəfər, Cəfər Xəndan xüsusilə fəal idilər. Həmid Araslının bu sahədə müstəsna xidmətləri olmuşdur və belə demək mümkündürsə müasir tipli ədəbiyyat tarixinin yaradılmasının banisidir. Görkəmli tənqidçi Yaşar Qarayev yazır: "Dünya ədəbiyyatları tarixləri var, yetmiş ildə bizim ədəbiyyat tarixini yaratmaq sahəsində öz böyük təcrübəmiz var. Təkcə Ədəbiyyat institutu beş fundamental ədəbiyyat tarixi nəşr eləyib. Onları bir kənara qoysaq, ədəbiyyat tarixi öz sabitliyini, öz tarixliyini itirir... Yer üzündə bütün ərazilərdə bizim ana dilimizdə yazılan ədəbiyyat Azərbaycan ədəbiyyatıdır və Azərbaycanın tarixi ərazisində azərbaycanlı sənətkarın təfəkkürü və ilhamı ilə bütün dillərdə qələmə alınan ədəbiyyat (Nizaminin və Xaqaninin fars, Füzulinin fars və ərəb dilində irsi) yenə Azərbaycan Ədəbiyyatıdır. (20,səh 22)

Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı Həmid Araslı və öncə adlarını çəkdiyimiz digər ədəbiyyat tarixçiləri əsasən tarixi-xronoloji prinsipə əsaslanmışlar. Bunu biz XX əsrdə Sovet dövründə yaranan ədəbiyyat tarixlərimizin hər birində izləyə bilərik.

Konkret olaraq bir neçə nümunənin adını qeyd etmək istərdik:

1.Həmid Araslı, M.Quluzadə və M.Cəfərin redaktorluğu ilə hazırlanan üçcildlik. Azərbaycan Ədəbiyyatı tarixinin I cildinin I fəslində VII əsrə qədər Azərbaycan ədəbiyyatı, II fəslində VII-XII əsrlər Azərbaycan ədəbiyyatı, III fəsildə XII-XIV əsrlərdə Azərbaycan ədəbiyyatı, IV fəsildə XV-XVI əsrlərdə Azərbaycan ədəbiyyatı, V fəsildə isə XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı təhlil olunur.

Sonrakı illərdə Əlyar Səfərli və Xəlil Yusiflinin nəşr etdikləri "Azərbaycan ədəbiyyatı tarixi", Qədim və Orta əsrlər tarixi kitabında da tarixi-xronoloji prinsipə riayət edilmişdir. Yuxarıda qeyd olunan materiallar və tədqiqatlar əsasında belə qənaət hasil olur ki, Azərbaycan ədəbiyyatının başlanğıc mərhələsinin müəyyənləşdirilməsində dil meyarı deyil, mədəni, coğrafi və ideoloji bağlılıq əsas götürülməlidir. Ərəb və fars dillərində yazan, lakin mənşəyi, təfəkkürü və ədəbi fəlsəfi istiqamətləri etibarı ilə Azərbaycan ədəbi-mədəni mühitinə bağlı olan

müəlliflər- QətranTəbrizi, Nizami Gəncəvi, Qazi Burhanəddin, İmadəddin Nəsimi, Qövsi Təbrizi və başqaları - milli ədəbiyyat tariximizin ayrılmaz hissəsidir. Həmid Araslı, Əlyar Səfərli, Xəlil Yusifli və digər tədqiqatçılar tarixi-xronoloji bölgü əsasında bu klassikləri Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərinə aid etmiş, bununla da milli ədəbiyyatın dil yox, ideya məzmunca ümumiliyini əsaslandırmağa çalışmışlar. Bu yanaşma klassik irsin ümumilli dəyər kimi dəyərləndirilməsinə geniş imkan yaratmışdır. Lakin XX əsrin sonlarından başlayaraq klassik irsin tədqiqində yeni bir mərhələ formalaşmağa başladı. Bu mərhələdə tədqiqat obyektinə yalnız tarixi və coğrafi meyarlarla deyil, həm də bədii düşüncə sistemləri, poetik-estetik modellər və dünyagörüşü strukturları baxımından yanaşılır.

**Ədəbiyyat siyahısı**

1.A.Dadaşzadə. Salman Mümtaz. "Fikrin karvanı" kitabında. Bakı: Yazıçı, 1984.
2.A.Bakıxanov. Gülüstani-İrəm. Bakı, Elm, 1951.
3.B. Nəbiyev. Firidun bəy Köçərli. Bakı: EA-nın nəşriyyatı, 1963.
4.F. Köçərli Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild, Bakı: Elm, 1978.
5.H. Araslı XVll-XVlll əsr Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Bakı: ADU-nun nəşriyyatı, 1956.
6.İ. Həbibbəyli Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019.
7.İ. Həmidov. Azərbaycan ədəbiyyatı klassikləri ərəb ədəbiyyatşünaslığında" Bakı. Elm. 2007.
8.K.Talıbzadə . Seçilmiş əsərləri, II cilddə, ll cild, Bakı: Azərnəşr, 1994.
9.K.Talıbzadə. XX əsr Azərbaycan ədəbi tənqidi. EA-nın nəşriyyatı, 1966.
10.Q.Kəndli, İ. Şəms, Böyük Azərbaycan alimi və ədibi Mirzə Məhəmmədəli Tərbiyət Təbrizinin "Daneşməndane Azərbaycan" kitabına ön. Bakı: Azərnəşr, 1987.
11.M. Mahmudov. Xətib Təbrizi (həyat və yaradıcılığı) Bakı, Elm, 1972.
12.M.C.Cəfərov. Seçilmiş əsərləri. 2 cilddə, l cild- Bakı, Azərnəşr, 1973.
13.M.F.Axundzadə əsərləri. 3 cilddə, ll cild. Bakı, Şərq-Qərb, 2013.
14.M.Məmmədova. Lütfəli bəy Azər və Azərbaycan ədəbiyyatı. Bakı, Örnək, 2001.
15.R,Qənbərqızı. F.B.Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri. F.B.Köçərlinin ikicildlik əsərinə ön söz, l cild. Bakı: Elm, 1978.
16.S. Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986.
17.T. Hüseynoğlu : Ədəbiyyatla yaşayıram. Bakı: Azərnəşr, 1993.
18.T. Məhəmmədəli. Daneşməndane-Azərbaycan. Bakı: Azərnəşr, 1987.
19.V. Sultanlı. Azərbaycan ədəbi tənqidi. Bakı. 2019.
20.Y. Qarayev. Tarix: Yaxından və uzaqdan. Bakı: Sabah, 1996.

**Rəyçi: Filologiya elmləri doktoru, professor Fəridə Əzizova tərəfindən çapa tövsiyyə olunmuşdur.**